*Layihə*

# Alternativ xidmət haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsinin II hissəsinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının əqidəsinə görə keçə bilmədikləri həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasının hüquqi tənzimlənməsi qaydalarını müəyyən edir.

## 1-ci fəsil
## Ümumi müddəalar

### Maddə 1. Alternativ xidmətin anlayışı

Alternativ xidmət Azərbaycan Respublikası vətəndaşı tərəfindən həqiqi hərbi xidmətin əvəzinə həyata keçirilən ictimai faydalı əmək fəaliyyətidir.

### Maddə 2. Alternativ xidmət haqqında qanunvericilik

Alternativ xidmət haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

### Maddə 3. İctimai faydalı əmək növlərinin müəyyən edilməsi

Alternativ xidmət keçmə üçün nəzərdə tutulan ictimai faydalı əmək növlərin siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

### Maddə 4. Alternativ xidmət hüququ olan şəxslər

4.1. Azərbaycan Respublikası qanunvericiliyinə əsasən həqiqi hərbi xidmət keçəmək vəzifəsi olan Azərbaycan vətəndaşı əqidəsinə görə bu vəzifəni icra edə bilmədikdə alternativ xidmət hüququna malikdir.

4.2. Hərbi xidmət keçmək vəzifəsini icra etməklə zidd olan əqidə həm dini, həm də qeyri dini baxışları əhatə edə bilər.

**Maddə 5. Alternativ xidmət keçmə müddəti**

5.1. Müddətli həqiqi hərbi xidmət keçmək vəzifəsi olan şəxslər üçün alternativ xidmət keçməyin müddəti keçməli olduqları həqiqi hərbi xidmətin müddətindən artıq olmamalıdır.

5.2. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarının alternativ xidmət keçmə müddəti bu təhsildən imtina etdikləri təqdirdə keçməli olduqları müddətli hərbi xidmət qədərdir.

5.3. Dövlətlə bağlaşma əsasında həqiqi hərbi xidmət göstərən şəxslərin alternativ xidmət müddəti bağlaşma müddətinin sonuna kimi qalan müddətdən artıq ola bilməz.

5.4. Digər həqiqi hərbi xidmət keçən zabitlərin alternativ xidmət müddəti 36 aydır. Bu kateqoriyadan olan şəxslər 10 ildən artıq zabit kimi həqiqi hərbi xidmət olublarsa, onlar əqidəsinə görə alternativ xidmətə göndərilmədən həqiqi hərbi xidmətdən azad edilirlər.

## 2-ci fəsil

## Alternativ xidmətə göndərmə

**Maddə 6. Alternativ xidmətə göndərməyə baxan orqanlar**

6.1. Vətəndaşların alternativ xidmətə göndərilməsi barədə məsələ Alternativ xidmət keçmə məsələri üzrə Dövlət komissiyası tərəfindən həll edilir. Bu komissiyanın müstəqilliyini və qərəzsizliyini təmin etmək üçün tərkibinin formalaşmasında müxtəlif dövlət qürumlarının və vətəndaş cəmiyyətinin iştirakı təmin edilir.

6.2. Dövlət komissiyası aşağıdakı məsələləri həll edir:

6.2.1. vətəndaşların alternativ xidmət keçmə barədə müraciətlərinə baxır və müvafiq qərar qəbul edir;

6.2.2. vətəndaşların alternativ xidmət keçməsini təşkil edir;

6.2.3. Maraqlı qurumların təqdimatı əsasında alternativ xidmət keçmə yerlərini və növlərini müəyyən edir, vətəndaşları alternativ xidmət keçmə üçün bu yerlərə təyin edir;

6.2.4. Alternativ xidmət keçməyə vaxtından əvvəl xitam verilməsi barədə qərar qəbul edir.

6.3. Müvafiq dövlət qürumları Dövlət Komissiyasına alternativ xidmət keçmə üçün boş olan iş yerləri barədə 3 aydıan bir müvafiq məlumat verməlidirlər.

6.4. Dövlət komissiyasının yerli strukturları yaradıla bilər.

**Maddə 7. Alternativ xidmət keçmə barədə ərizənin verilməsi**

7.1. Həqiqi hərbi xidmət keçmə vəzifəsi olan şəxs alternativ xidmət keçmə barədə ərizə ilə Alternativ xidmət keçmə məsələləri üzrə Dövlət komissiyasına müraciət edir. Ərizədə alternativ xidmət keçmənin səbəbləri əsaslandırılmalıdır.

7.2. Çağırışçılar ərizəni çığırıldıqları çağırış komissiyasına təqdim edə bilərlər. Çağırış Komissiyası daxil olmuş ərizəni 48 saat ərzində Alternativ xidmət keçmə məsələləri üzrə Dövlət komissiyasına çatdırır.

7.3. Həqiqi hərbi xidmətdə olan şəxslər alternativ xidmət keçmə barədə ərizələrini xidmət etdikləri müvafiq hərbi hissənin komandirlərinə təqdim edə bilərlər. Belə ərizələr müvafiq hərbi hissələr tərəfindən 48 saat ərzində Alternativ xidmət keçmə məsələləri üzrə Dövlət komissiyasına çatdırılır.

**Maddə 8. Alternativ xidmət keçmə barədə ərizəyə baxılması**

8.1. Alternativ xidmət keçmə məsələləri üzrə Dövlət Komissiya ərizəçinin şəxsi işini tələb edir, ərizənin tam, obyektiv və qərəzsiz araşdırılması üçün aiddiyyəti dəlilləri araşdırır.

8.2. Alternativ xidmət keçmə məsələləri üzrə Dövlət Komissiya alternativ xidmət keçmə barədə ərizəyə ərizə qeydiyyata alındığı gündən 20 gün müddətində baxır və qərar qəbul edir.

8.3. Ərizəçinin ərizəsinə baxılan komissiyanın iclasında iştirak etmək, dəlillər gətirmək, sənədlər təqdim etmək və şahidlərinin dinlənilməsini tələb etmək hüququ vardır. Komissiyanın iclasının vaxtı və yeri barədə əvvəlcədən məlumatlandırılmış ərizəçinin üzrsüz səbəbdən komissiyanın iclasında iştirak etməməsi məsələyə onun iştirakı olmadan baxılmasına mane olmur.

8.4. Ərizəsinə baxılana kimi ərizəçi hərbi xidmət vəzifəsinin icrasına cəlb edilə bilməz.

8.5. Dövlət Komissiyasının yerli strukturları yaradıldıqda bu maddədə göstərilən səlahiyyətləri onlar həyata keçirir.

### Maddə 9. Alternativ xidmət keçmə barədə ərizəyə dair qərar

9.1. Alternativ xidmət keçmə məsələləri üzrə Dövlət Komissiyası daxil olmuş ərizənin təmin və ya rədd edilməsi barədə yazılı qərar qəbul edir. Bu qərar 3 gün müddətində ərizəçiyə çatırılmalıdır. Alternativ xidmət keçməyə göndərilmənin rədd edilməsi barədə qəbul edilmiş qərar əsaslandırmalıdır.

9.2. Alternativ xidmət keçməyə göndərilmə barədə qərar qəbul edildikdə ərizəçiyə alternativ xidmət keçməyə dair vəsiqə verilir.

9.3. Alternativ xidmət keçməyə göndərilmənin rədd edilməsi barədə qərardan İnzibati prosessual Məcəllə ilə nəzərdə tutulmuş qaydada və müddətdə məhkəməyə şikayət verilə bilər. Məhkəməyə şikayət verilməsi ərizəçinin həqiqi hərbi xidmətə cəlb edilməsini dayandırır.

## 3-cü fəsil
## Alternativ xidmətə keçmə

### Maddə 10. Alternativ xidmət keçmə yerinə gəlmə

10.1. Alternativ xidmət keçmə barədə ərizəsi təmin edilmiş vətəndaşa verilən vəsiqədə xidmətin keçiriləcəyi yer və xidmət yerinə getmə vaxtı göstərilir.

10.2. Alternativ xidmət keçməyə təyin edilmiş şəxs vəsiqədə göstərilən vaxtda təyin edilmiş yerdə olmalıdır. Alternativ xidmət keçən vətəndaşın xidməti müddəti xidmətə başladığı gündən hesablanır.

10.3. Şəxsin alternativ xidmət keçmə yerinə gəlməsi və xidmətə başlaması barədə gəldiyi qurumun rəhbərliyi 5 gün müddətində Dövlət Komissiyasına məlumat verməlidir.

10.4. Dövlət Komissiyasına alternativ xidmət keçmək üçün boş yer barədə məlumat vermiş müvafiq qurum alternativ xidmət keçməyə gəlmiş vətəndaşı qəbul etməkdən imtina edə bilməz.

10.5. Alternativ xidmət keçməyə gəlmiş vətəndaş peşə hazırlığına cəlb edilə bilər və bu müddət onun xidmət müddətinə hesablanır.

**Maddə 11. Alternativ xidmət keçmə qaydası**

11.1. Alternativ xidmət keçmə qaydası bu Qanunun və müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş aktla müəyyən edilir.

11.2. Alternativ xidmət çəkən zaman əməyin nizamlanması ilə bağlı məsələlər əmək qanunvericiliyi ilə tənzimlənir.

11.3. Alternativ xidmət keçmə yerinin daxili instruksiyaları alternativ xidmət keçən vətəndaş üçün məcburidir.

**Maddə 12. Alternativ xidmət keçən şəxsin hüquqları**

12.1. Alternativ xidmət keçən vətəndaşlar Azərbaycan Respublikası qanunları ilə nəzərdə tutulan bütün hüquqlarından istifadə edirlər.

12.2. Alternativ xidmət keçən vətəndaşlar əmək qanunvericiliyindən yaranan bu qanuna zidd olmayan hüquqları vardır.

12.3. Alternativ xidmət keçmə yerlərin vətəndaşın yaşadığı ərazidə təyin edilməlidir. Alternativ xidmət keçən şəxs xidmət keçdiyi dövrdə işdən sonra evinə gedə bilər. Əgər vətəndaşın yaşadığı ərazidə uyğun xidmət yeri yoxdursa, vətəndaş başqa ərazidə yerləşən xidmət keçmə yerinə göndərilməlidir. Alternativ xidmət çəkmə yerinə gedilməsi ilə bağlı xərclər vətəndaşa dövlət tərəfindən ödənilir. Yaşadığı ərazidən kənarda xidmət keçən şəxs təyin olunduğu qurum tərəfindən yaşayış yeri ilə təmin edilir.

12.4. Alternativ xidmət keçən vətəndaşları xidmət yerlərini dəyişmək üçün Dövlət Komissiyasına müraciət etmək hüquqları vardır.

12.5. Alternativ xidmət keçən şəxsin məzuniyyət hüququ vardır. Məzuniyyətin təyin edilmə qaydası və müddəti əmək qanunvericiliyi ilə müəyyən edilir və xidmət müddəti daxil edilir.

12.6. Alternativ xidmət keçən vətəndaş hakimiyyət səlahiyyətləri həyata keçirən vəzifələr, rəhbər və maddi məsuliyyət daşıyan vəzifələr tuta bilməz.

12.7. Alternativ xidmət keçən şəxslərin tətil etmək hüquqları məhdudlaşdırılır.

**Maddə 13. Alternativ xidmət keçən şəxslərin məsuliyyəti**

13.1. Alternativ xidmət keçən vətəndaşlar törətdikləri hüquq pozuntularına və cinayət əməllərinə görə Azərbaycan Respublikası qanunvericiliyi ilə məsuliyyət daşıyırlar.

13.2. Alternativ xidmət təyin edilmiş vətəndaş tərəfindən üzrsüz səbəbdən xidmət yerinə gəlməmə, özbaşına xidmət yerini tərk etmə, xidmətdən yayınma, xidmət yerinə qayıtmama zamanı buraxılmış xidmət müddəti ikiqat hesablanır.

13.3. Bu qanunun 12.2-ci maddəsində nəzərdə tutulan hallar davamlı hall aldıqda, ardıcıl 3 aydan artıq müddəti əhatə etdikdə vətəndaş xidmətdən yayınmaya görə cinayət məsuliyyətinə cəlb edilə bilər.

13.4. Bu qanunun 12.2. və 12.3.-cü maddələrində nəzərdə tutulan hallar barədə qərar alternativ xidmət keçmə yerinin rəhbərliyinin təqdimatı əsasın Dövlət Komissiyası tərəfindən qəbul edilir. Alternativ xidmət keçmə yerinin rəhbərliyi təqdimatda eyni zamanda alternativ xidmət keçən vətəndaşla əmək münasibətlərinə xitam verilməsi barədə vəsatət qaldıra bilər.

13.5. Alternativ xidmət keçən vətəndaşların sosial təminatı məsələləri Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyi ilə həll edilir.

## 3-cü fəsil

## Alternativ xidmətin başa çatması və ya vaxtından əvvəl bitməsi, yaxud təxirə salınması

### Maddə 14. Alternativ xidmət keçmənin başa çatması

Alternativ xidmət keçən vətəndaşın xidmət keçmə müddəti başa çatdıqda, o alternativ xidmətdən tərxis olunur və yerli çağırış komissiyasının qeydiyyata alınmaq üçün göndərilir. Alternativ xidmətinin başa vurmuş vətəndaş tərxis olunuduğu gündən 10 gün müddətində yerli çağırış komissiyasında qeydiyyatda durmalıdır.

### Maddə 15. Alternativ xidmət keçmənin başa çatması

15.1. Alternativ xidmət keçən vətəndaş aşağıdakı hallarda alternativ xidmətdən vaxtından əvvəl aşağıdakı hallarda tərxis edilə bilər:

15.1.1. Öz arzusu həqiqi hərbi xidmətə keçmək istədikdə;

15.1.2. Alternativ xidmətdən yayındığına görə cinayət məsuliyyətinə xəlb edildikdə;

15.1.3. Alternativ xidmət keçməsinin mümkün etməyən hüquq pozuntusu törətdikdə və buna görə məsuliyyətə cəlb edildikdə;

15.1.4. Alternativ xidmət keçmə zamanı əmək qabiliyyətini itirdikdə və müvafiq komissiyanın qərarı ilə sağlamlığına alternativ xidmət keçməyə uyğun hesab edilmədikdə;

15.2. Vətəndaş alternativ xidmətdən hərbi xidmətə keçirildikdə, yalnız həqiqi hərbi xidmət keçmə müddəti hərbi xidmət kimi sayılır.

15.3. Vətəndaşın alternativ xidmət keçdiyi qurum ləğv edildikdə, vətəndaşa alternativ xidmət keçməsi üçün başqa yer təyin edilir. Bu dövrdə vətəndaşın xidmətsiz qaldığı müddət xidmət müddətinə hesablanmır.

**Maddə 16. Alternativ xidmət keçmənin təxirə salınması**

16.1. Vətəndaşın alternativ xidmət keçməsi aşağadıkı hallarda təxirə salına bilər:

16.1.1. vətəndaşın ailə vəziyyəti ilə bağlı;

16.1.2. 15 gündən artıq olmayan müddətdə öz hesabına məzuniyyət götürdükdə;

16.1.3. vətəndaşın xəstəliyi ilə bağlı məzuniyyətə çıxdıqda;

16.1.4. təhsili ilə bağlı məzuniyyətə getdikdə.

16.2. Alternativ xidmətin təxirə salınma əsasları aradan qalxdıqda xidmət müddəti davam edir.

**Maddə 17. Alternativ xidmət keçmənin təxirə salınması**

17.1. Alternativ xidmət keçmiş vətəndaş tərxis edildikdən sonra, ehtiyyata göndərilir. Hərbi qulluqçuların nəzərdə tutulan yaş həddinə qədər ehtiyyatda qalır.

17.2. Alternativ keçmiş vətəndaşlar hərbi toplanışlara çağırılmırlar. Alternativ keçmiş vətəndaşlar təbii fəlakətlər, föqalədə hallar və səfərbərlik dövründə yenidən alternativ xidmətə çağırıla bilər. Bu zaman alternativ keçmiş

vətəndaşlar təbii fəlakətin nəticələrinin ləğvinə, fövqəladə hallar və səfərbərlik elan edildikdə digər humanitar işlərə cəlb edilirlər.

## 5-ci fəsil
## Yekun müddəalar

**Maddə 18. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**M a d d ə 19. Bu Qanununun qüvvəyə minməsi qaydası**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 20. Bu Qanunun qüvvəyə minməsi ilə əlaqədar dəyişdirilməli Azərbaycan Respublikasının qanunları**

20.0. Bu Qanun qüvvəyə mindiyi gündən aşağıdakı qanunlara dəyişiklik edilsin:

20.0.1. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 35; 2012, № 12, maddə 1370)

20.0.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205);

20.0.3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676,

№ 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193, 2018, № 5, maddə 865).